


# Bayramınız mübarək!

Gəncəli oxucumuz Bəxtiyar Yunisoğlu Novruzla bağlı redaksiyamıza şer sovqatı göndərib. Biz də bu təbriklərə qoşulur, bütün mədəniyyət işçilərini, onların ailələrini təbrik edirik!

## Novruz duyğuları

Ötüşdü qar fəslimiz,
Yetişdi bar fəslimiz.
Vətən, mübarək olsun
Nazlı bahar fəslimiz.

Qəmi, kədəri ataq,
Arzuya, kama çataq.
Hər eldə, hər obada
Novruz tonqalı çataq.

Mən aşiqəm gül olsun,
Yaz qönçəsi gül olsun.
Xalqıma gələn qada
Bu tonqalda kül olsun.

Eləmi tonqal yanar,
Novruzda tonqal yanar.
Erkək kababı üçün
Həyətdə manqal yanar.

Boz ay bozartdı üzün,
Nimçəyə buğda düzün.
Novruz şənliklərində
Əldə səməni süzün.

Eləmi uçub gələr,
Köçən quş uçub gələr.
Yaz müjdəli qaranquş,
Baharı qucub gələr.

Torpaq qışdan ayıldı,
Çərşənbələr sayıldı.
Zəfəranlı plovun
Ətri elə yayıldı.

Mən aşiqəm boyandı,
Yumurtalar boyandı.
İlaxır çərşənbədə
Şamlar rəngbərəng yandı.

Əzizinəm köz üstdə,
Aş dəmlənər köz üstdə.
Paxlava bişirirlər
Məcməyidə köz üstdə.

Eləmi qönçə üzək,
Yaz gülün qönçə üzək.
Novruz axşamlarında
Süfrəyə xonça düzək.

Mən aşiqəm sovruldu,
Buğda, yeldə sovruldu.
Novruz çərəzi kimi
Sacda bişdi qovruldu.

Mən aşiqəm sevindi,
Bülbül gülçün sevindi.
Bahar məhəbbət fəsli,-
Sevil indi, sev indi.

Yaz xonçası noğuldu,
Püstə, badam, noğuldu.
Baharda toy edənlər
Olar qızlı, oğullu.

Əzizinəm çalına,
Yaz toyları çalına.
İlaxır çərşənbədə
Çıxaq qulaq falına.

Mən aşiqəm pusan var,
Tində durub susan var.
Bu novruz axşamında
Qapımızı pusan var.

Yaz yağışı incidir,
Çəmənin sevincidir.
Çiçəklərdən tez açan
Bənövşə birincidir.

Mən aşiqəm soyun gəl,
Qış kürkünü soyun gəl.
Qurşaq tutub cavanlar,-
Meydanda var, oyun-gəl.

Mən aşiqəm barışdı,
Küsülülər barışdı.
Novruz şənliklərində
Pəhləvanlar yarışdı.

Əzizim sovqat gələr,
Dost eldən sovqat gələr.
Bayramlar ayı martda
Xoş əhval, ovqat gələr.

İlimin yazı gəldi,
Çölümün nazı gəldi.
Durnalar qayıtdılar,
Gölümün qazı gəldi.

Eləmi adətimdir,
İnamım, adətimdir.
Novruz soyumdan gələn
Qədim el adətimdir.